2017-ci ilin yanvar-fevral aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 38423,7 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 36676,8 min ABŞ dollarını yaxud 95,5 faizini ixrac, 1746,9 min ABŞ dollarını yaxud 4,5 faizini idxal təşkil etmişdir.

İdxalın həcmi son bir il ərzində 50,1 faiz azalmış, ixracın həcmi isə 1 faiz artmışdır. Ümumilikdə bu dövr ərzində 34929,9 min Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır.